Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“05” iyun 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 23

**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ**

**DATA DEPARTAMENTİ HAQQINDA**

**ƏSASNAMƏ**

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Data departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, Mərkəzi Bankın İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə, həmçinin dövlət orqanları (qurumları) ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi Mərkəzi Bankda emal və istifadə olunan məlumatların effektiv və səmərəli şəkildə idarə olunmasına, təhlili və qiymətləndirilməsinin təmin edilməsinə, analitika texnologiyalarını tətbiq etməklə data əsaslı qərarların qəbul edilməsinə dəstək göstərilməsindən ibarətdir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. Mərkəzi Bankın fəaliyyəti ilə bağlı olan bütün məlumatları toplamaq, emal etmək və saxlamaq üçün infrastrukturun yaradılması və idarə olunması;

3.2. Mərkəzi Bankın hədəflərinə çatmaq üçün məlumatların toplanılması, saxlanılması və təhlil edilməsi üçün uyğun məlumat arxitekturasının müəyyən edilməsi və tətbiqi;

3.3. məlumatların müvafiq formada idarə olunması, təhlil edilməsi üçün qayda və prosedurların hazırlamasında iştirak edilməsi;

3.4. məlumatlar vasitəsilə analitik təhlil və proqnozların hazırlanmasına, məlumatlar arasında əlaqələrin aşkar edilməsinə və trendlərin müəyyənləşdirilməsinə sistemsal dəstəyin göstərilməsi;

3.5. yeni texnologiyalar və avtomatlaşdırılmış həllərə dair məlumatların idarə olunması və işlənməsində tətbiqi;

3.6. Departament əməkdaşlarının təlim və inkişafının təmin edilməsi, yeni texnologiyalar və metodologiyalar barədə biliklərinin artırılması ilə bağlı aidiyyəti struktur bölmələrlə birgə müvafiq işlərin görülməsi;

3.7. müxtəlif mənbələrdən daxil olan məlumatların toplanması və aidiyyəti departamentlərin tələblərinə uyğun məlumatlara çıxış imkanının təmin edilməsi;

3.8. məlumatların saxlanması, idarə olunması və təhlil edilməsi üçün zəruri texnologiyanın daim inkişaf etdirilməsi;

3.9. Departament üzrə büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.10. Departamentə aidiyyəti üzrə daxil olan müraciətlərə baxılması, məktub və sorğuların cavablandırılması;

3.11. rəhbərliyin tapşırığı ilə səlahiyyətinə aid məsələlər üzrə arayışların və materialların hazırlanması;

3.12. rəhbərliyin tapşırıqlarına uyğun olaraq Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələr və bölmələrdən ibarətdir:

4.1.1. Data idarəedilməsi şöbəsi;

4.1.2. Data əməliyyatları və analitikası şöbəsi:

4.1.2.1. Data əməliyyatları bölməsi;

4.1.2.2. Data analitikası bölməsi;

4.1.3. Data elmi şöbəsi;

4.1.4. Data mühəndisliyi şöbəsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

### 5.1. Data idarəedilməsi şöbəsi

5.1.1. məlumatların idarə olunması üzrə strateji planları hazırlayır və tətbiq edir;

5.1.2. məlumatların düzgünlüyünün, tamlığının və etibarlılığının qorunması üçün keyfiyyət standartları tətbiq edir;

5.1.3. məlumatların təhlükəsizliyinin və məxfiliyinin qorunması üçün müvafiq siyasətlərin və prosedurların tətbiqində iştirak edir;

5.1.4. məlumatların təsnifləşdirilməsini sistemsal olaraq tətbiq edir;

5.1.5. aidiyyəti struktur bölmələrlə birlikdə məlumatların saxlanması, arxivləşdirilməsi və bərpası üzrə qayda və prosedurların hazırlamasında iştirak edir;

5.1.6. aidiyyəti struktur bölmələrlə birlikdə məlumatların istifadəsi və paylaşımı ilə bağlı prosedurların hazırlaması və tətbiqində iştirak edir;

5.1.7. məlumat idarəetmə proseslərinin qanunvericiliyə və müvafiq standartlara uyğunluğunu təmin edir;

5.1.8. müvafiq struktur bölmələrlə birlikdə Mərkəzi Bank əməkdaşlarına məlumatların idarəedilməsi mövzusunda təlimlər keçir;

5.1.9. verilənlər bazasının ehtiyat nüsxələrinin yaradılması və bərpası proseslərini hazırlayır;

5.1.10. məlumatların toplanılması üçün texniki tələbləri, xidmət səviyyəsi müqavilələlərini, siyasətləri və prosedurları təyin edir və inkişaf etdirir;

5.1.11. data kataloqlarının yaradılmasını və idarə edilməsini təmin edir;

5.1.12. Şöbənin fəaliyyət istiqamətləri üzrə hesabatlar hazırlayır və rəhbərliyə təqdim edir;

5.1.13. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

### 5.2. Data əməliyyatları və analitikası şöbəsi:

5.2.1. **Data əməliyyatları bölməsi**

5.2.1.1. məlumatlarla bağlı əməliyyatların monitorinqini və səmərəli işləməsini təmin edir;

5.2.1.2. məlumatların tamlığı və keyfiyyətinin yüksəldilməsi üçün müvafiq tədbirlər görür;

5.2.1.3. məlumatların təhlil edilməsi nəticəsində əldə olunmuş əməliyyat qərarlarının icrasını təmin edir;

5.2.1.4. məlumat sistemlərini idarə edir və gündəlik nəzarət tədbirlərini həyata keçirir;

5.2.1.5. Data üzrə yeni texnologiyaların tətbiq edilməsində iştirak edir;

5.2.1.6. məlumatların itirilməsi və ya pozulması hallarının qarşısını almaq üçün müvafiq tədbirlər görür;

5.2.1.7. məlumatların yalnış interpritasiya, saxtakarlıq və məqsədyönümlü olmayan istifadələrinin qarşısının alınması üçün tədbirlər görür;

5.2.1.8. məlumatların əlçatan olmasını təmin edir;

5.2.1.9. məlumatların interaktiv qrafiklər şəklində hazırlanması və vizualizasiyası üçün təkliflər verir;

5.2.1.10. Bölmənin fəaliyyət istiqamətləri üzrə müvafiq struktur bölmələrə təqdim olunacaq hesabatlar hazırlayır;

5.2.1.11. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

5.2.2. **Data analitikası bölməsi**

5.2.2.1. məlumatların analitik emal proseslərinin hazırlanması, modifikasiyası, habelə icrasını təşkil edir;

5.2.2.2. analitik alətlər və texnologiyaların tətbiqi ilə bağlı məlumatları təhlil edir;

5.2.2.3. müvafiq məlumat modellərini təhlil və tətbiq edir;

5.2.2.4. məlumatlardan proqnozların və nəticələrin əldə edilməsi üçün modellər işləyib hazırlayır;

5.2.2.5. Mərkəzi Bankın hədəflərinə nail olmaq üçün dataları təhlil edir;

5.2.2.6. məlumatların analitik təhlili əsasında nəticələrin vizuallaşdırılması üçün müvafiq alətləri tətbiq edir, habelə hesabatlar hazırlayır;

5.2.2.7. məlumatların tədqiqat, həmçinin təhlil proseslərini təşkili və icra edir;

5.2.2.8. məlumatlar əsasında proqnoz modellərinin yaradılmasını və tətbiq edilməsini təklif edir;

5.2.2.9. data üzrə yeni texnologiyaların tətbiqini analiz edir və təkliflər irəli sürür;

5.2.2.10. hesabatlıq sistemləri üzrə texniki tələbləri tərtib edir;

5.2.2.11. digər sistem və bölmələrlə inteqrasiyanı təmin edir;

5.2.2.12. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Data elmi şöbəsi**

5.3.1. məlumatları təhlil edir və bu məlumatlardan istifadə edərək statistik modellər yaradır;

5.3.2. maşın öyrənmə (machine learning) və süni intellekt alqoritmlərini inkişaf etdirir və tətbiq edir;

5.3.3. məlumatların təmizlənməsi və formatlanması üzrə işlər görür;

5.3.4. məlumatların təhlil nəticələrini vizual alətlərlə təqdim edir;

5.3.5. Mərkəzi Bankın digər departamentləri üçün məlumatların əlçatanlığını təmin edir və interpretasiya edir;

5.3.6. yeni data elmi metodları, alqoritmləri və texnologiyaları tədqiq edərək tətbiq edir;

5.3.7. mövcud analitik metodları və modelləri təkmilləşdirir və yeni yanaşmaları inkişaf etdirir;

5.3.8. yeni analitik həlləri və model konsepsiyaları prototipləşdirir;

5.3.9. analitik layihələrin ilkin mərhələlərində eksperimental işləri həyata keçirir;

5.3.10. biznes problemlərinin həlli üçün analitik yanaşmaları və data elmi metodları tətbiq edir;

5.3.11. data elmi modellərin və analitik həllərin performansını izləyir və optimallaşdırır;

5.3.12. riyazi modellərin sistemsal performans göstəricilərini təhlil edir və effektivliyinin artırılması istiqamətində işlər görür;

5.3.13. Bölmə əməkdaşlarının yeni texnologiyalar və metodologiyalar barədə bilik və bacarıqların artırılması istiqamətində müvafiq tədbirlər görür;

5.3.14. beynəlxalq təcrübədə mövcud olan modelləri təhlil edir və Mərkəzi Bankın strateji hədəflərinə çatmaq üçün icra oluna bilən modellər siyahısını tərtib edir;

5.3.15. data elmi ilə bağlı layihələrdə çoxsahəli qruplarla birlikdə işləyir;

5.3.16. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.4. Data mühəndisliyi şöbəsi**

5.4.1. məlumat saxlama və emal üçün infrastrukturun qurulmasını və idarə olunmasını həyata keçirir;

5.4.2. məlumatların emalı və saxlanması üçün müvafiq texnoloji həllərin tətbiqini və optimallaşdırılmasını təmin edir;

5.4.3. dövri və birdəfəlik hesabatları, analitik və süni intellekt əsaslı modelləri dəstəkləyəcək miqyaslana bilən məlumat platformasının tətbiqini, dəstəklənməsini və davamlı inkişaf etdirilməsini təmin edir;

5.4.4. məlumatların toplanması, ötürülməsi, emalı və saxlanması üçün müvafiq texniki alətlərdən istifadə edir;

5.4.5. məlumat axınlarının (data flows) avtomatlaşdırılmasını və monitorinqini həyata keçirir;

5.4.6. verilənlər bazasında məlumatların təmizlənməsi, keyfiyyətinin artırılması və istifadəyə yararlı formata gətirilməsini təmin edir;

5.4.7. müxtəlif mənbələrdən (daxili və xarici sistemlərdən) məlumatların inteqrasiyasını təmin edir.

5.4.8. məlumatların birləşdirilməsi üçün tətbiq proqramlaşdırma interfeysi (APİ) və digər inteqrasiya vasitələrinin inkişafı və idarə olunmasını təmin edir;

5.4.9. məlumat bazalarının strukturlarının dizaynını və optimallaşdırılmasını həyata keçirir;

5.4.10. performansı artırmaq üçün indekslərin, partisyonların və digər texnikaların tətbiqini təşkil edir;

5.4.11. məlumatların şifrələnməsi, icazələrin idarə olunması və audit mexanizmlərinin tətbiqini təmin edir;

5.4.12. canlı (real-time) məlumat emalı üçün sistemləri və alətləri qurur;

5.4.13. daxil olan və xaric olan məlumat axınının emalı (stream processing) və real vaxt analitikası (real-time analytics) texnologiyalarını tətbiq və idarə edir;

5.4.14. məlumat axınlarının və sistemlərinin fasiləsiz işləməsini təmin etmək üçün monitorinq alətlərini tətbiq edir;

5.4.15. məlumat infrastrukturunun davamlı işləməsi üçün texniki dəstək göstərir və problemləri operativ həll edir;

5.4.16. məlumat anbarlarını (data warehouses) dizayn edir, qurur və idarə edir;

5.4.17. məlumat bazalarının fəaliyyətini izləyir və optimallaşdırır;

5.4.18. fəaliyyət problemlərini müəyyənləşdirmək və həll etmək üçün təhlil və optimallaşdırma tədbirlərini görür;

5.4.19. digər struktur bölmələrlə məlumat mühəndisliyi layihələri üzrə əməkdaşlıq edir;

5.4.20. yeni texnologiyaları və metodları tətbiq edir;

5.4.21. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏALAR

Bu Əsasnamə təsdiq olunduğu gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**